## Cari ilin doqquz ayının yekunları

# Balakən: bu günü dünənindən gözəl diyar

12 oktyabr 2015-ci ildə ölkə Prezidenti cənab İlham Əlivevin sədrliyi ilə Nazirlər Kabinetinin cari ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş müşavirədə ölkə başçısı bildirmişdir ki, cari ilin ötən dövrü ərzində qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilmişdir.

Dövlət başçısı bildirmişdir ki, Dünya İqtisadi Forumunun reytinq cədvəlində Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə artıq 40-cı yerdə, MDB ölkələri arasında isə birinci yerdə qərarlaşmışdır.

Ötən ilin 9 ayında bütün bölgələrdə olduğu kimi, ölkəmizin şimal-qərb qapısı sayılan Balakən rayonunda da xeyli işlər görülmüşdür. **Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev** bu günlərdə keçirilən geniş şura iclasında vurğulamışdır ki, 2015-ci il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Kənd təsərrüfatı ili" elan olunmuş və bununla bağlı dövlət tərəfindən kənd təsərrüfatının inkişaf etdirilməsi və eləcə də istehsalçıların maddi marağının artırılması sahəsində əhəmiyyətli tədbirlər həyata keçirilir. Cənab Prezidentin "Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 15 aprel 2015-ci il tarixli 1175 nömrəli sərəncamı ilə kənd təsərrüfatı istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların məbləği 50 manata çatdırılmış, mineral gübrələrin satışında güzəştlər artırılmış, təkrar əkinlərə də yardımlar nəzərdə tutulmuşdur.

Hesabat dövründə kənd təsərrüfatı sahəsində görülən işlərin gedişinə operativ nəzarət olunmuş, texniki təminatın yaxşılaşdırılması istiqamətində görülən işlər özünün müsbət səmərəsini vermiş və əkin sahələrinin 2,2 % artırılması mümkün olmuşdur.

Təsərrüfatlarda 11870 ha sahədə yazlıq bitkilər əkilmişdir. Onun 7101 hektarı qarğıdalı, 378 hektarı lobva, 2041 hektarı tərəvəz, 312 hektarı bostan, 887 hektarı kartof, 1151 hektarı yonca sahələri olmuşdur. Təsərrüfatlarda 21,3 min ton tərəvəz, 8,2 min ton kartof, 3,2 min ton bostan, 701 ton lobya və digər məhsullar istehsal olunmuşdur. Hal-hazırda qarğıdalı, tərəvəz və meyvə istehsalı davam etdirilir. Qeyd olunmalıdır ki, rayonumuz qarğıdalı məhsulunun həm əkin sahələrinə görə, həm də istehsal olunan məhsulun həcminə görə son 4 ildə respublikada liderliyini qoruyub saxlayır. Bu isə öz növbəsində məhsul istehsalçılarını həvəsləndirir və sağlam rəqabəti formalaşdırır.

Hesabat dövründə bitkiçiliklə yanaşı, heyvandarlığın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, iri və xırda buynuzlu mal-qaranın baş sayının, ət və süd istehsalının artırılmasına nail olunmuşdur. Qazbinə kəndində yaradılmış heyvandarlıq fermasında ətlik heyvandarlığın, həmçinin quşçuluğun inkişaf etdirilməsi istiqamətində işlər görülmüşdür.

Rayonda son illərdə meyvəçiliyin inkişaf etdirilməsinə, yeni intensiv bağların salınmasına diqqət artmaqdadır. Əvvəlki illərdə salınmış 183 ha intensiv meyvə bağlarına qulluq göstərilmiş və məhsul istehsalının artırılması üçün əlavə tədbirlər görülmüşdür.

Bütövlükdə 2015-ci ilin 9 ayında rayonda 52,9 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da əvvəlki ilə nisbətən 3,9 milyon manat və ya 8 faiz çoxdur. İstehsal olunan məhsulun 60,9 faizi bitkiçilik, qalan 39,1 faizi isə heyvandarlıq məhsullarının payına düşmüşdür.

Hesabat dövründə rayonda dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrindən istifadənin səmərəliliyinin artırılması istiqamətində zəruri işlər görülmüş, bələdiyyə mülkiyyətində olan 338,5 ha mövsümi, dövlət mülkiyyətində olan 45 ha sahə əkinçilik məqsədləri üçün uzunmüddətli icarəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamının icrası ilə əlaqədar 2015-ci ilin ötən dövrü ərzində 2063 nəfər istehsalçıya becərdikləri 5179 ha əkin sahəsinə görə hər hektara 50 manat hesabı ilə cəmi 258,9 min manat yardım hesablanmış və ödənilməsi təmin edilmişdir.

Ötən dövrdə 665 ton mineral gübrə güzəştli qiymətlə istehsalçılara satılmış, 4 kənd təsərrüfatı texnikası lizinq yolu ilə verilmişdir. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına kənd təsərrüfatı sahəsinə 8 layihə üzrə 135 min manat kredit ayrılmış, ayrılmış vəsait hesabına 11 yeni iş yeri yaradılmışdır.

Müvafiq dövrdə rayonun fermerləri



Bakı şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında fəal iştirak etmiş və bu yarmarkalarda 30 ton müxtəlif növ meyvə və tərəvəz məhsullarının satışı təşkil edilmişdir.

Cari ilin 9 ayında rayon ərazisində abadlaşdırma, tikinti, təmir və quruculuq işləri davam etdirilmiş, zəlzələ zamanı qəzalı vəziyyətə düşmüş Sarıbulaq kənd uşaq bağçası yenidən tikilərək istifadəyə verilmişdir. İnternat məktəbinin əsaslı təmiri, kənd təsərrüfatı idarəsinin, rayon polis şöbəsinin, Qabaqçöldə yanğından mühafizə bölməsinin inzibati binalarının tikintisi davam etdirilir.

"Balakən-1" kiçik su elektrik stansiyasının tikintisi tamamlanmış, stansiya istismara hazırdır. Şəhərin Z.Əliyeva, A.Ansuxski, C.Məmmədquluzadə küçələrində, Katex-kombinat yaşayış məntəqəsində ümumilikdə 15 kommunal yaşayış binasının dam örtükləri dəyişdirilmişdir. Hazırda isə dəmir yolu stansiyası yaxınlığında olan 6 kommunal binanın dam örtükləri dəyişdirilir. Şəhərin Ə. Ansuxski 1 ünvanında yerləşən kommunal binanın həyəti şəhər bələdiyyəsinin "Nümunəvi məhəllə" layihəsi çərçivəsində abadlaşdırılmışdır. Həyətdə 2 ədəd talvar tikilmiş, tamet üzlüklə üzlənmə, səki tikintisi aparılmış, yaşıllaşdırma işləri görülmüş, sakinlərin istirahəti üçün zəruri şərait yaradılmışdır.

Heydər Əliyev prospektinin Qazbinə və Qullar istiqamətində hasarlar üzlənmiş, yol kənarında bordür və tamet daşları ilə səkilər düzəldilmişdir. Qullar kəndi istiqamətində küçə işıqlandırılması sistemi qurulmuş, Qazbinə kəndi istiqamətində yol kənarlarına torpaq daşınmış, ağaclar əkilmiş, yaşıllıqlar salınmış, gecə işıqlandırılması sistemi qurulmuşdur.

Yerli büdcə vəsaitləri hesabına Qabaqçöl qəsəbə və Katex 1 saylı kənd tam orta, Mazımçay kənd ümumi orta məktəblərində, Meşəşambul, Qazma, Püştətala və Katex 2 saylı kənd uşaq bağçalarında, uşaq yaradıcılıq mərkəzində, Katexkombinat sənətkarlıq evində, mərkəzi və şəhər kitabxanalarında, Gərəkli kənd həkim məntəqələrində təmir işləri aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 25 dekabr 2014-cü il tarixli Sərəncamına əsasən 2015-ci ildə rayonda 7 artezian quyusu qazılmışdır. Bundan başqa, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin dəstəyi ilə rayonda artezian quyularının qazılması üçün ayrılmış xüsusi briqada tərəfindən Talalar kəndində 1 artezian quyusu qazılmış, daha bir neçə kənddə də yeni quyuların qazılması nəzərdə tutulur.

Hesabat dövründə payız-qış mövsümünə hazırlıqla bağlı qaz, su və istiliklə təchizatın yaxşılaşdırılması üçün xətlərdə zəruri təmir işləri aparılmış, yaranmış problemlər qısa müddətdə aradan qaldırılmışdır. Elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması sahəsində 15 ədəd yeni transformator məntəqəsi quraşdırılmış, 38 transformator əsaslı, 200-dən çox transformator cari təmir edilmiş, 10 kv-luq xətlərdə 54 ədəd, 0,4 kv-luq xətlərdə 44 ədəd metal dayaq basdırılmış, 8,0 km məsafədə SİP kabel çəkilmiş, əhaliyə verilmiş elektrik enerjisinin dəyəri 92 faiz, içməli suyun dəyəri 83,9 faiz, qazın dəyəri 99,8 faiz ödənilmişdir.

Pensiya və müavinətlərin vaxtlı-vaxtında əhaliyə ödənilməsi təmin edilmiş, ünvanlı sosial yardımla bağlı müraciətlərin obyektiv və şəffaflıq təmin edilməklə həlli diqqətdə saxlanılmış, 1 oktyabr 2015-ci ilə 1448 ailəyə ünvanlı sosial yardım verilmişdir. Hər ailəyə ödənilən orta aylıq yardım 157 manat təşkil etmiş, ötən dövr ərzində 3619 nəfərə sosial müavinət, 442 nəfərə təqaüd ödənilmişdir.

Əhaliyə rabitə xidmətlərinin göstərilməsi sahəsində Qaracabinə kəndində 64 nömrə tutumlu yeni elektron stansiya quraşdırılmış, xətt şəbəkəsinin tikintisinə başlanılmışdır. Qazbinə kəndində xətt şəbəkəsi qurulmaqla əhaliyə telefon çəkilişi davam etdirilir. Kəndlərdə müxtəlif tutumlu kabellər təmir olunmuş, internet istifadəçilərinin sayı 361 nəfər artmış, 70 nəfərə telefon çəkilərək abonent sayı 7570 nəfərə çatdırılmışdır. Kənd elektron telefon stansiyalarında 12 DSLAM avadanlığı quraşdırılmışdır.

Hesabat dövründə məktəblərdə və məktəbdənkənar uşaq tərbiyə müəssisələrində təlim-tərbiyənin, hərbi vətənpərvərlik işinin keyfiyyətinin yaxşılaşdırılması, xüsusi qabiliyyətli şagirdlərin aşkar edilməsi sahəsində məqsədyönlü işlər aparılmışdır.

2015-ci ildə tam orta məktəb pilləsini bitirənlərin 355 nəfəri ali məktəblərə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi qəbul imtahanlarında iştirak etmiş, onlardan 219 nəfəri tələbə adını qazanmışdır. 6 nəfər 600-dən, 26 nəfər məzun isə 500-dən yuxarı bal toplamışlar. Cari il üzrə liseyin məzunlarından 86%-i, Nizami adına şəhər 1 saylı tam orta məktəbin məzunlarından 53,3%-i, Kortala kənd tam orta məktəbin məzunlarından 61%-i, Qaravəli kənd tam orta məktəbin məzunlarından 60%-i ali məktəblərə qəbul olunmuşlar. Nizami adına şəhər 1 saylı tam orta məktəbin məzunu Gülay Ömərova qəbul imtahanlarında 695 bal toplayaraq rayonun indiyə qədərki məzunları arasında ən yüksək nəticə göstərmişdir.

12-28 iyun tarixlərində Bakıda keçirilən birinci Avropa Oyunlarında üç həmyerlimiz iştirak etmişdir. İdmançılarımızdan yunan-Roma güləşi üzrə Oyunların qızıl mükafatçısı Rəsul Çunayev I Avropa Oyunlarında qazandığı yüksək nailiyyətə və Azərbaycan idmanının inkişafında böyük xidmətlərinə görə dövlət başçısının 29 iyun 2015-ci il tarixli Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür. Hesabat dövründə Rəsul Çunayev daha iki mötəbər yarışın — İranda keçirilən Dünya Kubokunun və ABŞ-da keçirilən Dünya Çempionatının qalibi olmuşdur. Rəsul Çunayevin əldə etdiyi yüksək nəticələr respublikada, eləcə də rayonumuzda idmanın kütləviliyinə və gənclərin bu sahəyə cəlb olunmasına müsbət təsir göstərir.

Hesabat dövründə bələdiyyələr mövcud sosial-iqtisadi problemlərin və yerli əhəmiyyətli məsələlərin həll olunması, abadlıq və quruculuq işlərinin aparılması sahəsində öz fəaliyyətlərini əvvəlki illərə nisbətən gücləndirmişlər. "Bir bələdiyyə-azı bir layihə" çərçivəsində Meşəşambul, Püştətala, Kortala, Hənifə, Talalar və Şərif bələdiyyələri tərəfindən kəndarası yollara 2,5 km məsafədə asfalt tökülmüşdür ki, bu da əhali tərəfindən böyük razılıqla qarşılanır. Tullantıların daşındığı ərazi isə abadlaşdırılacaqdır ki, bu da şəhərin ekoloji vəziyyətini yaxşılaşdırmağa imkan verəcəkdir. Həmçinin, zibilin çeşidlənməsi, kağız və plastik tullantılarının toplanması və təkrar istehsala yönəldilməsi təmin ediləcəkdir ki, bu da kommunal müəssisələri kombinatına əlavə gəlir əldə etməyə imkan verəcəkdir.

Ətraf mühitin və yaşıllıqların qorunması, ağac əkinlərinin artırılması və mühafizəsi işlərinə nəzarət edilməli, yol kənarlarına, park və bağlara əkilən ağaclara düzgün qulluq göstərilməsi, suvarılması və qorunması diqqət mərkəzində saxlanılmalıdır.

Nazirlər Kabinetinin müşavirəsindəki yekun nitqində ölkə başçısı cənab İlham Əliyev qeyd etmişdir ki, ilin sonuna qədər görüləsi bütün işlər icra olunacaq və biz 2015-ci ili yaxşı göstəricilərlə başa vuracağıq. Ölkə Prezidenti yekun nitqində həm də cari ildə qarşımıza qoyulan vəzifələri müəyyənləşdirdi. Bu vəzifələrin uğurla icrası, əldə olunan nəticələrin gələcəkdə də təmin olunması üçün qüvvə və bacarığımızı əsirgəməyəcəyik.

Sonra məruzə ətrafında müzakirələr olmuş və müvafiq qərar qəbul edilmişdir.

**İ.PƏNAHOV,**
**"Respublika".**